# Prezidentin yeni fərmanı sosial müdafiənin əhatə dairəsini genişləndirəcək

**_Azərbaycan Prezidenti tərəfindən ölkəmizdə aparılan uğurlu siyasət və islahatlar sosial müdafiənin əhatəliliyinin və ümumən cəmiyyətdə sosial məsələlərin həllində səmərəliliyin artırılmasını təmin edib. Həmçinin sosial xidmətlər sahəsində qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq genişlənib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) sosial sifarişi ilə icra edilən və həssas qrupları, habelə sağlamlıq imkanları məhdud uşaqları əhatə edən sosial xidmət layihələrinin sayı ötən illərə nisbətən dəfələrlə artıb. Hazırda bu kateqoriyadan olan insanlara 195 növ sosial xidmət göstərilir._**

Sosial xidmətlər çətin həyat şəraitinə məruz qalan şəxslərə və ya ailələrə təkbaşına bacara bilmədikləri çətinliklərin aradan qaldırılmasında dövlətin sosial dəstəyini göstərən tədbirlər sistemidir. Üç istiqamətdə – evlərdə, sosial xidmət müəssisələrində və sosial sifarişlər üzrə layihələr çərçivəsində göstərilən xidmətlər xüsusi qayğıya ehtiyacı olan 20 mindən çox insanı əhatə edir. Onlardan 50 faizə və ya 10 minə







yaxını məhz ixtisaslaşmış QHT tərəfindən icra olunan layihələr çərçivəsində xidmətlərlə təmin olunur.

Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, habelə sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu il, dekabrın 30-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Xidmətinin əsasında Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondunun əsasında Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin əsasında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Sosial Xidmətlər Agentliyi publik hüquqi şəxslər yaradıldı. Fərmanla, həmçinin Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" mərkəzləri açıldıqca yaradılan publik hüquqi şəxslərin yerli qurumlarının fəaliyyəti, əhaliyə göstərilən xidmətlərin əlçatanlığı qorunmaqla, regional əsaslarla qurulması təmin edilir və yeni sosial xidmət müəssisələri Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilir.

Sosial Xidmətlər Agentliyi dövlət qeydiyyatına alındığı tarixdən bir ay müddətində Dövlət Sosial Müdafiə Fondunun tabeliyindəki sosial xidmət müəssisələri həmin agentliyin tabeliyinə veriləcək. Həmçinin sənədə əsasən, Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsləri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqları günədək nazirlik yanında Dövlət Məşğulluq Xidməti, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti öz fəaliyyətlərini davam etdirəcəklər.

Qeyd edək ki, dövlət başçısının tapşırıqları əsasında son illərdə yeni istiqamətlər üzrə fəaliyyət göstərən bir sıra sosial xidmət müəssisələri, habelə Heydər Əliyev Fondunun sosial layihələrindən biri olaraq, dövlət uşaq müəssisələrinin məzunları üçün "Məzun evi" sosial müəssisəsi yaradılıb. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi (Qobustan rayonu) də yaxın vaxtlarda istifadəyə veriləcək. Prezident İlham Əliyevin 1 iyun 2019-cu il tarixli sərəncamı isə xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin istiqamətlərinin və əhatə dairəsinin dəfələrlə genişləndirilməsini təmin edib. Ölkədə ƏƏSMN-nin sosial sifarişləri və müəyyən olunmuş prioritetlər əsasında 66 QHT, həmçinin bir sıra hüquqi şəxs tərəfindən sosial xidmət layihələri icra olunur.

ƏƏSMN-nin sifarişləri və maliyyə dəstəyi ilə icra olunan sosial xidmət layihələrinin miqyası əhəmiyyətli dərəcədə genişlənib. Həmin layihələr üzrə xüsusi qayğıya ehtiyacı olan uşaqlar və digər şəxslər üçün sosial xidmət mərkəzlərinin sayı 3,5 dəfə artıb. Hazırda 200-ə yaxın mərkəz tərəfindən günərzi qayğı, reabilitasiya, psixoloji yardım, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım, surdoloji, sağlamlıq imkanları məhdud uşaqlara davranış üzrə valideynlərə dəstək və s. istiqamətlərdə 10 minədək şəxsə xidmətlər göstərilir.



Qeyd edək ki, yalnız paytaxtda deyil, respublikanın əksər bölgələrində də ehtiyacı olanlara çox yüksək səviyyədə sosial xidmətlər göstərilir. İndi bir çox rayonlarda günərzi qayğı mərkəzləri fəaliyyətdədir. Daşkəsəndə "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi tərəfindən yaradılan günərzi qayğı mərkəzində, Füzuli rayonunda "Beyləqan Gənclərinin Maarifləndirilməsi və Sosial İnkişafı" İctimai Birliyi tərəfindən yaradılan mərkəzdə, Zərdabda "Ümman" Sağlamlıq İmkanları Məhdud Uşaqlara Qayğı İctimai Birliyi tərəfindən yaradılmış günərzi qayğı mərkəzində, "Mərhəmət" Kimsəsizlərə Yardım İctimai Birliyi tərəfindən Qəbələ və İmişli rayonlarında yaradılan günərzi qayğı mərkəzlərində və digər rayonlarımızda fəaliyyət göstərən bu kimi günərzi qayğı mərkəzlərində 3–12 yaşarası olan, bir qismi sağlamlıq imkanları məhdud yüzlərlə uşaq hərtərəfli qayğı ilə əhatə olunub. Burada onlar gündə 3 dəfə yeməklə təmin olunur, məktəbdə təhsil alan uşaqlara pedaqoqlar tərəfindən ev tapşırıqlarının hazırlanmasında kömək edilir. Bundan əlavə, onlara psixoloji dəstək göstərilir və həmçinin uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif tədbirlər təşkil olunur. Eyni zamanda, nazirliyin sifarişi və maliyyə dəstəyi ilə QHT tərəfindən icra olunan sosial xidmət layihələri ölkədə yeni iş yerlərinin açılmasına, məşğulluğunun təminatı işlərinə də öz töhfəsini verib. Belə ki, hazırda həmin layihələrin icrası işlərində hər biri ilə əmək müqaviləsi bağlanılmaqla 1586 nəfər çalışır. Onların sırasına psixoloq, tərbiyəçi, pedaqoq, loqoped, terapevt, nevropatoloq, fizioterapevt və digərləri daxildir.



Prezidentin "Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı həssas qruplardan olanlara, həmçinin sağlamlıq imkanları məhdud uşaqlara göstərilən bu xidmətlərin əhatə dairəsinin genişlənməsinə və keyfiyyətinin daha da artırılmasına təsir göstərəcək. Bu xidmətlər 2020-ci ildə də rayonlarda həm mövcud olan, həm də yeni təşkil ediləcək sosial xidmət mərkəzlərində nə qədər çətin həyat şəraitinə məruz qalan şəxslərə və ya ailələrə təkbaşına bacara bilmədikləri çətinliklərin aradan qaldırılmasında, eyni zamanda, imkansız ailələrə, sağlamlıq imkanı məhdud olanlara dəstək olacaq.

**Zərifə BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**